ZABİL PƏRVİZ

# HEYRƏT, EY SÖZ!..



Bu il görkəmli Azərbaycan şairi Barat Vüsalın 70 yaşı tamam olur.

Barat Vüsal sözu ucalıqda tutan, Söz qübbəsini Antey kimi çiyinlərində saxlayan qüdrətli şairlərimizdən biridir.

Nizamidən, Nəsimidən, Füzulidən sonra da Sözə yüksək qiymət verən şairlər çox olub.

Amma bütün ömrü və yaradıcılığı boyu Sözü vəsf edən, əsərlərinin baş qəhrəmanına çevirən şairə az-az təsadüf olunur.

Barat Vüsal görəsən sözlə ilk dəfə harada və necə tanış olub?

Şeirlərinin birində bəyan edir ki, "Bizi nənəm böyüdüb!" Sonra da bildirir ki, "Necə şair olmayım, Sözü nənəm böyüdüb!"

Deməli Barat elə uşaqlıqdan Sözlə bir yerdə, bir ailədə, bir ocaq başında böyüyüb, bacı və qardaş kimi. Az qalır Şəhriyar kimi deyə ki, "nənə qarnında əkiz olmuşuq" Sözlə!..

Lap təzə, bu günlərdə yazdığı şeirlərin birində bu isti ailə doğmalığına heyran qalmamaq olmur:

Başlamışdı soyuqlar,
Dedim birdən soyuqlar.
Üstünü açmışdılar
Örtdüm sözün üstünü...

Nə qədər doğma, nə qədər munis, nə qədər isti, ülvi bir deyim!.. Halal olsun sənə, ağıllı bala, 70 yaşlı oğlan!..

Baratın oxucusu olmaq, onun lirik qəhrəmanına qoşulmaq o qədər də asan deyil, mən deyərdim ki, zor işdir. Buna görə müəyyən şərtlərə boyun qoymalısan, razılaşmalısan. Yoxsa bu qapı üzünə açılmayacaq.

Bunun üçün yüksək səviyyə və idraka, irfani intellektə malik olmalı, daxilən, içəridən qanadlanmalı və eyni zamanda güclü üzgəcləri olan qəvvasa çevrilməlisən:

O uca yerlərdənəm,
Bu dərin qatlardanam!
Bilinməz üstlərdənəm,
Görünməz altlardanam!

Barat Vüsal böyük irfani poeziyanın, Həllac Mənsurlar, Nəsimilər nəslinin bu günümüzdə yaşayan nadir varislərindəndir və həmin poeziyanın hələ ki, ikincisi olmayan davamçısıdır.

Böyük Nizaminin ilk dəfə Baratın dilindən eşitdiyim bir deyimi var: "Şeir (yəni Söz!) səni Sidrədə oturan bir şəxs edər".

Sidrə Allah məqamında olan bir yerdir, əlçatmaz, ali bir məqamdır, ora çatmaq, orada əyləşmək hər kəsə nəsib ola bilmir.

Görəsən niyə indiyə qədər xəbər tutmamışıq ki, bizlərdən birimiz, yəni Barat Vüsal həmin məclisdə oturur və qeyri-adi bir hadisənin şahidi olub:

Allah öz yerini Sözə veribdi,
Özü oturmağa yer yoxdu, gördüm!..

Heyrət, ey Söz!.. Sən hansı hörmətə və izzətə qadirsən ki, Allah öz yerini sənə verib, özü ayaq üstündə qalıbdı?!

Gördüm ki, qalxıb Allah yerini verdi Sözə,
Mən də qalxdım yerimdən, Allah gəlib otursun!

Heyrət, ey Şair!.. Sən hansı yerdə, hansı mərtəbədə oturmuşdun ki, qalxıb öz yerini Allaha verdin, Allah gəlib otursun?!

O məclisdə, o hörmətə, o izzətə layiq olan yeri Sənə kim vermişdi?!

Söz!.. Bütün daş kitabələrdən, yazılı abidələrdən, elmi məbədlərdən və mənbələrdən ucalıqda dayanan, bütün keçmişləri, tarixləri özündə yaşadan etibarlı Söz!..

Azərbaycan ərazisində onlarla Qaraqaşlı adlanan kənd var. Bunca geniş bir coğrafiyaya səpələnən qədim Türk tayfası Karakassi və onun indiki deyim forması Qaraqaşlı!..

Qaz, kas, qas, quz, xəz... Qafqaz, Kaspi, Xəzər, xəzri... sözlərində yaşayan yaşı bilinməyən ulu babalarımızın tayfa adı!.. Söz!.. Mənbə, qaynaq!..

Çoxumuz "protokol" sözünə Avropa mənşəli alınma söz kimi baxırıq. Soruşa bilərsiniz ki, poeziyaya yad olan bu soyuq "məmur" sözün Barat Vüsala nə dərəcədə dəxli var? Var, özü də əsaslı şəkildə, köklü şəkildə, lap rəsmi şəkildə dəxli var!..

İki qədim Türk mənşəli sözdən yaranmış və ərəb qrammatikası qanunları ilə formalaşmış bu söz birləşməsinə fikir verin: "Bəratülqol". Yəni qol sənədi, imza sənədi!.. Bizim bu doğma Sözümüz Şərq dillərindən Avropa dillərinə keçmiş və təhrif olunaraq qol-qabırğası sındırılmış, "protokol" şəklində üstümüzə qayıtmışdır.

Barat Vüsal bu Sözün halal haqqını özünə qaytaran şairdir! Baratın şeirləri məhz onun qolu-imzası ilə yazılmış tökmə, monolit, bölünməyən, parçalanmayan protokol hökmündə olan nəğmələrdir:

Yaşamaq... yaşamaq... yaşamaq kimi
Piyada getməyi xoşlayıram mən.

Baratın hər şeiri, hər obrazlı deyimi özlüyündə bir vulkan suxurunu, od filizini, köz külçəsini xatırladır:

Mənim qibləm Allah özü,
Mən belə hacı insanam!..

Barat Vüsal şair kimi mənə dağ çapan Fərhadları xatırladır. Amma o, Bisütun dağını yox, Söz dağını çapır. Bəs görəsən o bu dağdan nə istəyir, nə axtarır?

Barat axtardığını tapıb, özü də çoxdan tapıb. Onun adı Dirilik Suyudur, Söz dağında çağlayan Dirilik Suyu!.. Bunu özü də deyir:

Mən şeir yazıram, bulaq oxuyur!
Hər ikinizə uğurlar! Alqış, igid!..

BARAT VÜSAL QALASI

Dəli könlüm, söz köhlənim,
Dayan, çək öz cilovunu.
Bu vadidə keçməz daha
Söz havası, dil oyunu.

Bu daşlara diqqətlə bax,
Zamanı üyüdür, udur.
Bax bu daş düşmən kəlləsi,
Bu daş da dost yumruğudur.

Sən deyən çox deyil yaşı,
Dayan görək bu nə qala.
Görək kimdir tikən bunu,
Bu çınqıldan xəbər alaq.

İlin, günün bu vaxtında
Qala tikmək kimə gərək, -
Ay usta, işin irəli,
Ulduzun, bürcün mübarək!

Ay usta, yorulmayasan,
Nə qəribə qaladır bu, -
Hansı odda yoğurmusan,
Daş daşa qaynaq olubdu.

Səda gəldi:
- Dili-qafil,
Tanımadın, yeni əsrin
Bu tanrısal qalasıdır, -
Diri şeirin, diri sözün
Barat Vüsal qalasıdır!..

ədalət.- 2021.- 24 aprel.- S.14.